# Bir portretin ştrixləri

**Bu günlərdə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC dahi bəstəkar Üzeyir bəy Hacıbəyliyə həsr olunmuş bədii-sənədli filmin təqdimat mərasimini keçirib.**

"Üzeyir Hacıbəyli: bir portretin ştrixləri" adlı film-tamaşanın premyerası Azərbaycan Dövlət Film Fondunda olub.

QSC-nin "Sabah" Yaradıcılıq Studiyasında hazırlanan "Yad et məni" bədii-sənədli filmlər silsiləsindən olan bu ekran əsərində Üzeyir bəy Hacıbəyli ilə bağlı uzun illər gizli qalmış faktlar açıqlanır, onun həyatı ilə əlaqədar maraqlı məqamlar üzə çıxarılır, bəstəkarın 18 il heç nə qələmə almamasının əsl səbəbləri işıqlandırılır.



Filmin yaradıcı heyəti bu film-tamaşanı Üzeyir bəy Hacıbəylinin 140 illiyi münasibəti ilə ərsəyə gətiriləcək iriçaplı bədii filmin başlanğıcı hesab edir.

Azərbaycan.- 2022.-27 noyabr.- S.7.